**Orucoğlu, Z.** Vətən sevdalı döyüş yolu // Respublika. - 2025. - 13 avqust. - **№ 168**. - S. 12.

Tariximizin ən şərəfli səhifəsi olan İkinci Qarabağ müharibəsində Vətənimizin qeyrətli, mətin oğlanları xalqa zəfər sevincini yaşatdılar. 1997-ci il dekabrın 26-da Cəlilabadda anadan olan İbrahim Şaməddin oğlu Əzizov da müqəddəs amal uğrunda son damla qanına qədər döyüşüb, qəhrəmanlıq tariximizdə silinməz iz qoyub.

Haqqında qürur hissi və iftixarla söhbət açdığım İbrahim Əzizov Soltankənd kəndindəki tam orta məktəbi 2015-ci ildə bitirib. Hərbi xidmətdə olub. Əsgər olduğu gündən igidliyi, mərdliyi, vətənsevərliyi İbrahimə hörmət gətirib. Tankçı peşəsini mükəmməl öyrənib. Vətən torpaqlarının işğalına qarşı barışmaz mövqeyini ortaya qoyan igid əsgər 2016-cı ilin aprel döyüşlərində Lələtəpənin azad edilməsində şücaət göstərib. 2017-ci ildə hərbi xidmətini başa vurub Sumqayıtdakı şirkətlərdən birində işə düzəlib. Burada vicdanla çalışmaq, onun həyat kredosu olub. Dost-tanışa da deyib ki, Vətən torpağının düşmən tapdağında qalması bizə yaraşmır. Bu yolda canımı qurban verməyə hazıram. İbrahim 2018-ci ildə ailə həyatı qurub, bir ildən sonra qızı dünyaya gəlib. Yaxşı ailə başçısı kimi tanınıb.

Qəlbində Vətənə sevgi, düşmənə nifrət hissi gəzdirən İbrahim 2020-ci il sentyabrın 21-də hərbi komissarlığa çağırılıb və Beyləqana göndərilib. İkinci Qarabağ müharibəsinin ilk günündə sinəsini Vətənə sipər edib, İbrahim düşmənə vurduğu ağır zərbələri ilə yadda qalıb. Döyüşlərin birində tarix yazıb şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda", Qubadlının, Füzulinin, Şuşanın azad olunmasına görə medallarına layiq görülüb.

Zəfər şəhidimizin həyat yoldaşı Tünzalə Abbasova deyir: - İbrahim Vətən yolunda şəhadətə qovuşub. O, mənim üçün sağdır, onu qəlbimdə gəzdirirəm. Adı xalq tərəfində böyük iftixarla çəkilir, mən onunla qürur duyuram. Tez-tez zəng edirdi. Səsini eşidəndə bütün dünya mənim olardı. Danışırdıq, amma qısa. Çünki səs eşitməyimi istəmirdi. Bir dəfə soruşdum ki, üşüyürsən? "Yox" dedi. Axırıncı dəfə çox az danışdıq. Bunu mən istədim. Bilirdim ermənilər telefonla danışanları vururlar. Bir neçə gün zəng edə bilməyəcəyi, telefonlarının olmadığı barədə xəbərdarlıq etdi. Nigaran qalmamağımı tapşırdı... Cəsədini görəndə inanmaq istəmirdim. Sentyabrın 21-də necə yola salmışdımsa, elə idi. Üzü yenə gülürdü. Ən çətin vaxtımda yuxularıma girir və mənə "ölməmişəm, sağam" deyir.